*AMEA Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutu*
*Azərbaycan ədəbiyyatşünaslığı, 2025, № 1* *ISSN: 2663-4406*
*Səhifə: 179-186* *E-ISSN: 2709-2699*
*https://doi.org/10.59849/2663-4406.2025.1.179*

# Mirzə Rəhim Fənanın "1905-ci il hadisəsi" əsərində ermənilərin törətdikləri faciələr

**Sevinc Əsgərova**
AMEA Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutu, dissertant
E-mail: sevincesgerova660@gmail.com

**Annotasiya.** Məqalədə Qarabağ ədəbi mühitinin görkəmli nümayəndəsi Mirzə Rəhim Fənanın "1905-ci il hadisəsi" adlı əsəri haqqında geniş məlumat verilir. Əsərin əlyazma nüsxəsi, məzmunu, zamanımıza qədər çatan hissələri barədə danışılır. M.R.Fənanın bu əsərdə qələmə aldığı hadisələri öz gözləri ilə gördüyü və yaşanan faciələri ürək ağrısı ilə təsvir etdiyi nəzərə çatdırılır. Bildirilir ki, Çar Rusiyasının bölgələrdə qalxan iğtişaşları yatırtmaq və hökumət əleyhinə yüksələn etirazların qarşısını almaq üçün alovlandırdığı erməni-azərbaycanlı milli münaqişəsi zəminində Azərbaycanın digər bölgələrində olduğu kimi, Qarabağda, əsasən də Şuşa şəhəri və Əsgəran qalası ətrafında müsəlman əhaliyə qarşı dəhşətli qətliamlar törədilmiş, külli miqdarda maddi ziyan vurulmuş, azərbaycanlılar yaşayan onlarla kənd viran edilmişdir. Çar Rusiyasının ərazidəki məmurlarının da ermənilərə havadar durduğu üçün müsəlman əhalidən itkilərin sayının daha çox olduğu faktlar əsasında qeyd edilir.
**Açar sözlər:** Mirzə Rəhim Fəna, 1905-ci il hadisələri, əlyazma, soyqırım

**Məqalə tarixçəsi:** göndərilib – 15.04.2025; qəbul edilib – 29.04.2025

# The tragedies committed by Armenians in the work "The Event of 1905" by Mirza Rahim Fana

**Sevinj Asgerova**
Institute of Literature named after Nizami Ganjavi of ANAS, dissertator
E-mail: sevincesgerova660@gmail.com

**Abstarct.** The article provides detailed information about the work "The Events of 1905" by Mirza Rahim Fana, a prominent figure of the Karabakh literary environment. It discusses the manuscript version of the work, its content, and the parts that have survived to the present day. It is noted that Mirza Rahim Fana personally witnessed the events he describes in the work and conveys the tragedies with deep sorrow. The article emphasizes that, as in other regions of Azerbaijan, horrifying massacres were committed against the Muslim population in Karabakh – particularly in the city of Shusha and around the Askeran Fortress – amid the Armenian-Azerbaijani national conflict instigated by Tsarist Russia to suppress uprisings and opposition. These events resulted in significant material damage and the destruction of dozens of Azerbaijani villages. Based on factual evidence, it is stated that the losses among the Muslim population were greater due to the support given to Armenians by local Tsarist officials.
**Keywords:** Mirza Rahim Fana, Events of 1905, manuscript, genocide

**Article history:** received – 15.04.2025; accepted – 29.04.2025

## Giriş / *Introduction*

XX əsrin əvvəllərində Çar Rusiyasında sosial münaqişələrin kəskinləşməsi, fəhlələrin kütləvi etirazları, kəndlilərin artan narazılığı Azərbaycanda da bütün sosial təbəqələrin siyasi-ideoloji cəhətdən fəallaşması üçün obyektiv şərait yaratdı. Çar hökumətinin müstəmləkə siyasəti, milli zülmün güclənməsi, imperiyanın ucqarlarda yaşayan xalqların hüquqlarının pozulmasına şərait yaratması cəmiyyətin milli məsələnin tezliklə həllində marağı olan bütün təbəqələrini birləşdirdi. Çünki, milli məsələ ən mürəkkəb sosial məsələlərdən biri idi və cəmiyyətin mütərəqqi hissəsi getdikcə daha kəskin şəkildə mövcud quruluşun dəyişməsi problemini ortaya qoyaraq, islahatların keçirilməsini tələb edirdi.

## Əsas hissə / *Main part*

XX əsrin ilk illərində Rusiya mütləqiyyəti müstəmləkələrdə genişlənən milli hərəkatın qarşısını almaq məqsədilə müxtəlif tədbirlərə əl atmağa başladı. Müstəmləkə xalqları arasında milli ədavətin qızışdırılması isə çarizmin əl atdığı tədbirlərin ən başlıcası idi. Xüsusilə Azərbaycanda milli oyanışı cilovlamaq üçün çar hökuməti azərbaycanlılarla ermənilər arasında milli ədavəti qızışdırmağa və hətta bunu açıq qanlı münaqişələr həddinə gətirib çıxarmağa çalışırdı. Hüseyn Baykara həmin illərdə xalqın milli şüurunun formalaşdırılmasında ziyalıların, xüsusən də ədiblərin rolu haqda yazırdı: “Azərbaycan xalqı XX əsrin əvvəllərində, 1905-ci il inqilabı illərində öz milli mənafelərini, azadlıqlarını şüurlu şəkildə müdafiə etmələri üçün o dövrün ədəbiyyatına, ədiblərinə şübhəsiz ki, borcludurlar. Ədəbiyyatçılar bu işdə öz vəzifələrini yerinə yetirə bilmişdilər” [1, s.75].

Azərbaycan ziyalılarının Şərqin və Rusiyanın digər əyalətlərinin türk-müsəlman xalqları ilə əlaqələrinin yaranması rus hakim dairələrinin qarşısında yeni bir məsələni – türk-müsəlman xalqlarını Şərq aləmindən təcrid etmək və bu xalqların birliyinə mane olmaq məsələsini həll etmək zərurətini yaratdı. Bunun nəticəsində 1905-ci ilin fevral ayında Azərbaycan torpaqlarında ermənilərlə azərbaycanlılar arasında 1906-cı ilin son payızına qədər davam edən milli münaqişə zəminində qanlı toqquşmalar baş verdi. Məhəmməd Əmin Rəsulzadə Qafqazda milli münaqişənin yenidən baş qaldırması ilə bağlı yazırdı: “Cənnətmisal Qafqazı böylə cəhənnəmə döndərən... Rusiya istibdadi-qəddaranəsini kim tanımıyor?” [7, s.27]

Bir sözlə, çar hökuməti ictimai narazılığı ört-basdır etmək üçün milli qırğınlara rəvac vermişdi: “Bakıda zəhmətkeşlərin çıxışlarının böyük vüsət aldığını görən çar hökuməti dairələri burada azərbaycanlılarla ermənilər arasında milli nifaq salmağı qət etdi və buna nail oldu. Hökumətin milli qırğın siyasətinin həyata keçirilməsində Daşnaksütyun Partiyası və erməni quldurları həlledici rol oynadı” [6, s.221].

Tədqiqatçıların bir qisminin fikrincə, “...ermənilərin.... müəyyən mərhələlərdə azərbaycanlılara qarşı törətdikləri qırğınların və soyqırımların ilk mərhələsi 1905-1906-cı illəri əhatə edir” [4]. Lakin qeyd etmək lazımdır ki, milli münaqişə problemi 1905-ci ildən öncə də özünü büruzə vermişdi. Mir Möhsün Nəvvabın yazdığına görə, müxtəlif zamanlarda – 1844, 1877 və 1903-cü illərdə bu millətlər arasında qarşıdurmalar baş vermiş və bu münaqişənin əsas səbəbkarı da ruslar olmuşdur [5, s.11-13]. XIX əsrin sonlarında “Daşnaksütyun” partiyasının yaranması ilə bu məsələ gündəmə gətirilərək planlı şəkildə və fəal surətdə həyata keçirilməyə başladı. Əvvəllər baş verən xırda toqquşmalar 1905-ci ildə mütəşəkkil şəkildə təşkil edildiyi üçün Azərbaycan ərazisinin əksər bölgələrini bürüdü. Hadisələrin əsl səbəbini yaxşı bilən qabaqcıl ziyalılar xalqı bu ağır gündə birliyə çağırmaq, düçar olduqları bəlalardan xilas etmək üçün iki millət arasında baş verən bu qanlı faciəni xronikalaşdırdılar. Çarizmin antimüsəlman siyasəti nəticəsində alovlanan bu milli münaqişə Üzeyir Hacıbəyli, Əli Nəzmi, Nəriman Nərimanov, Cəfər Cabbarlı, Məmməd Səid Ordubadi və s. kimi ziyalıların yazılarında, başda “Molla Nəsrəddin” məcmuəsi olmaqla, dövrün əksər qəzet və

jurnallarında geniş təsvir edilirdi. Ziyalılarımız hadisələrə münasibət bildirirdi.

1905-ci il hadisələrinin qaynar nöqtələrindən olan Qarabağda baş verən bu hadisələrə münasibət olduqca sərt idi. Qələm sahibləri bu qırğını törədənlər və onu alovlandıranlara qarşı nifrət dolu şeirləri ilə çıxış edir, insanları sülhə, barışa çağırırdılar. Qarabağın qabaqcıl ziyalılarından olan İsgəndər bəy Rüstəmbəyov, Mir Möhsün Nəvvab, Məmo bəy Məmai, Mirzə Rəhim Fəna və başqaları öz yazılarında xalqı birliyə çağırır, mənfur erməni vandallarına və onların himayədarları olan ruslara qarşı birgə mübarizə aparmağa səsləyirdilər. İsgəndər bəy Ağdam və Şuşa camaatı qarşısında etdiyi çıxışları, Mir Möhsün Nəvvab "Bax" rədifli 25 bənddən ibarət mürəbbesi, 10 bənddən ibarət müsəddəsi, "Millətin birləşməsi haqqında" adlı tərcibəndi, Məmo bəy Məmai "Olsun" rədifli müxəmməsi və digər şeirləri ilə xalqı ruhlandırır və onlarda mübarizə əzmini daha da artırırdılar. Mübariz əhval-ruhiyyə ilə yaşayan Qarabağ şairləri xalqın gücünə, qüvvətinə inanır və onları daha da ruhlandırmaq üçün hətta irihəcmli əsərlər də yazırdılar. M.M.Nəvvabın "1905-1906-cı illərdə erməni-müsəlman davası", M.R.Fənanın "1905-ci il hadisəsi" adlı əsərlərini misal göstərmək olar.

Hər iki müəllif münaqişə zamanı Şuşada olmuş, əvvəldən-axıra qədər baş verən bütün hadisələrin şahidi olmuşdular. Nəvvabın əsəri bizə tam, Fənanın əsəri isə natamam şəkildə gəlib çatmışdır. Şuşanın düşdüyü vəziyyəti ürəkağrısı ilə qələmə alan Mirzə Rəhim Fəna onu Məcnunsuz qalan Leyliyə bənzədir, şəhərə qovğa salanları lənətləyirdi:

*Gültək ağlayaram, ey Leyli Şişə,*
*Viran olsun görüm belə dünyanı.*
*Bizim başımıza düşübdü daşlar,*
*Şəhrimizə salıblar əcəb qovğanı.* [2, v. 1[a]]

Elə bu hisslərlə də o, "1905-ci il hadisəsi" adlı tarixi əsərini qələmə almışdır. AMEA Məhəmməd Füzuli adına Əlyazmalar İnstitutunun arxivində F-13, s.v. 48 şifri ilə saxlanılan bu əlyazma M.R.Fənanın ən qiymətli əsərlərindəndir. Onun nəsrlə qələmə aldığı bu tarixi əsər real həyat hadisələrinə istinadən yazıldığı üçün inandırıcı, maraqlı və təsirlidir. Əsəri oxuduqca onun cazibəsinə düşür, sanki hadisələrin canlı şahidi olur, erməni vəhşiliklərini öz gözlərinlə görür, qəbilə xislətli bu mənfur zümrənin necə bir qaniçən tayfa olduğunu bir daha başa düşürsən.

Əsərin əldə olan II fəslinin girişində müəllifin verdiyi məlumatdan məlum olur ki, risalə üç cilddə olmuşdur. Əfsuslar olsun ki, əsərin birinci və üçüncü cildləri hələ də tapılmamışdır. Müəllifin: "Bu gündən risalənin ikinci cildini yazmağa müyəssər olduq, xitamı üçün isə Allahdan yardım diləyirik" [2, v 1[a]] qeydindən məlum olur ki, şair artıq I cildi tamamlayaraq, ikinci cildi yazmağa başlamışdır. İkinci cildin girişində verilən məlumatdan aydınlaşır ki, müəllif öz gözləri ilə görüb şahidi olduğu hadisələri qələmə almışdır: "Bu sənəddə Şuşa qalasında və Qarabağ vilayətində müsəlman milləti ilə erməni tayfası arasında baş verən qətllər və mücadilələr ardıcıllıqla bəyan olunacaqdır. Bu hadisələrin əksəriyyətini yazar öz gözləri ilə görmüş və eşitdiklərinin həqiqətə nə qədər uyğun olub-olmamasına həddindən artıq diqqət yetirmişdir" [3]. O, əsərin bir yerində, hətta yazacağını nəzərdə tutduğu III cildin adını da qeyd edir. Bu cildin adı "Əxlaqi-müslimin" olmalı idi.

Mirzə Rəhim bu əsərində təkcə Qarabağda – Şuşa, Zəngəzur, Cəbrayıl, Cavanşir, Ağdamda deyil, epizodik olsa da, erməni vandallarının Bakı, Tiflis, Gəncə, Qazax, Ağdaş və digər bölgələrdə törətdikləri qanlı hadisələrdən də bəhs etmişdir.

57 vərəqdən (114 səh.) ibarət olan bu əlyazma ortadan qatlanaraq dəftər şəklinə salınmış sarımtıl saya vərəqlərdə yazılmışdır. Ümumilikdə əsərin həcmi şərti olaraq dəftər adlandırdığımız 8 bükümdən ibarətdir. Hadisə zamanı Şuşada yaşayan, sonralar isə Bakıya köçərək ömrünün sonuna qədər orada fəaliyyət göstərən ədib hansı səbəbdənsə əsərini nəşr etdirməmişdir. Araşdırmalar göstərir ki, o, Bakıda yaşadığı müddətdə ədəbi mühitdə layiqli imic qazana bilmişdir. Müxtəlif dərnəklərdə lektor (mühazirəçi) kimi çıxış edən, ədəbi ictimaiyyətin qabaqcıl nümayəndəsi kimi

tanınan şairin çox güman ki, müəyyən nəşriyyatlarda da tanışları, dostları olmuşdur. Maraqlıdır ki, təkcə bu əsəri deyil, onun AMEA ƏYİ-nin arxivində F-13 şifri ilə mühafizə olunan 62 saxlama vahidindən ibarət digər əlyazmalarından heç birisi nəşr olunmamış, əlyazma şəklində gəlib bizə çatmışdır. Əksər əlyazmaları kimi, bu əlyazma da redaktə edilməmişdir. Hiss olunur ki, hadisələrin gedişi zamanı tələsik yazıldığı üçün qaralama şəklində gəlib bizə çatmışdır.

Mirzə Rəhim əsərinin 21, 45, 63, 89, 101-ci səhifələrində verdiyi ayrı-ayrı epizodlardan məlum olur ki, münaqişə zamanı Şuşada yaşamış və digər qeyrətli həmvətənləri kimi əlinə silah götürərək döyüşmüş, millət vəkili kimi xalqın problemlərinin həllində fəal iştirak etmişdir.

Əldə olan risalənin girişində müəllif Şuşada və ətraf bölgələrdə baş verən hadisələrin səbəbi haqqında məlumat verir: "Elləti-həvadisati-nagüvar əvvəlinci cilddə müfəssəl bəyan olunduğuna bu məqamda o mənaya mütəərriz olmuyub ibtidayi-hadisədən xəbər veririk" [2, v. 1[a]]. Risalənin birinci cildi əldə olmadığı üçün ədibin baş verən hadisələrin əsl səbəbini necə şərh etməsi, hansı qənaətlərə gəlməsi haqqında fikir söyləməyə çətinlik çəkirik. Lakin ikinci kitabda ara-sıra verilmiş bəzi qeydlərdən hiss edirik ki, müəllif bu qanlı hadisələrin baş verməsinin əsas səbəbkarı və ssenaristi kimi rusları görürdü. Bu, əlbəttə, düzgün nəticə idi. Çünki tarix boyu qonşu dövlətləri çapıb-talayan, onlardan özünə bufer yaradan rusların bir siyasəti vardı: "Parçala – hökm sür". Bu məramla onlar xalqları bir-birinin üstünə salır, mələk donu geyərək özünü sülh göyərçini kimi göstərir, əslində isə qaniçən əcaib varlığa çevrilirdilər.

Müəllif "Qala davası və sülhdən sonra Şuşa mahalında baş verən hadisələr" başlığı altında yazır: "Qarabağda baş verən iğtişaş və hadisələri təfərrüatı ilə yazsaq, neçə cilddən ibarət böyük bir tarix kitabı ortaya qoyular, lakin biz bu hadisəyə dair xülasə etməyə çalışırıq. Ancaq hər bir hadisəyə dair qısaca məlumat verib əsas səbəbini şərh etməyə və millət düşmənlərinin real durumlarından bəhs etməyə diqqət yetiririk" [3, s.81].

O, daha sonra hadisələrin təkcə Qarabağda deyil, digər regionlarda da cərəyan etdiyini və bütün Rusiyada, xüsusilə Qafqazda özbaşınalığın baş alıb getdiyini, heç kəsin heç kəsdən xəbəri olmadığını, sanki qiyamət gününün gəlib çatdığını, hər kəsin öz canının hayına qaldığını təəssüflə qeyd edir.

Risalənin "Şuşa şəhərinin mühasirəsinin şərhi" bölməsində müəllif həmin dövrdə baş verən olayları təsvir edərkən, gözləri qan ağladığı, "ciyəri dağlandığını" söyləyir və "bu müsibəti yazmaqdan əlim sınsın" – deyə, özünə qarğış edir və sonra: "Oxucular düşünməsinlər ki, yazarın ürəyinə qorxu düşüb və insanlıq keyfiyyətinə xələl yetişibdir. Əsla! Bu girişi yazmaqda məqsəd başqalarında özümüzə qarşı acıma hissi oyatmaq və ya gücsüz hala düşməyimizi bəyan etmək deyil. Bütün baş vermiş hadisələrin və müharibələrin canlı şahidi olduğum üçün istəyirəm gələcək nəsillər xəbərdar olsun" [3, s.28-29]. Millətin düşdüyü fəlakəti bütün ağırlığı ilə duyan ədib sülh elan edildikdən sonra ev-eşiyinə, yurd-yuvasına qayıdan həmvətənlərinin yanmış evlərini, dağıdılmış yurd-yuvalarını gördükdə keçirdikləri dəhşətli anlarını, əzablı iztirablarını elə məharətlə təsvir edir ki, oxucu istər-istəməz bu fəlakətin canlı şahidinə çevrilib hər şeyini itirmiş bu insanların dərdinə şərik olmaq istəyir: "Bu bədbəxtlər üçün heç bir təskinlik yeri yoxdur. ... hər kəs öz yurd-yuvasını soraqlayır, amma kim nə tapa bilər? Yanmış divarların heybətinə bir baxan, ikinci dəfə baxmağa cürət etmir. İllər uzunu əldə edilən və uzun ömürlər sərmayəsi olan bütün varidatının məhv olmasından dizlər titrəyir, ürək sıxılıb, bel bükülür. Bu kədərli mənzərəyə gözucu belə nəzər saldıqda hiss itib, baş gicəllənir. Geri qayıtmağa da imkan yoxdur. Qayıtsan belə? hansı qohumuna üz tutub ümid bağlayasan ki, səndən daha artıq fəlakət və ehtiyac içində olmasın" [3, s.71].

Ədib bu acınacaqlı səhnələri sadəcə təsvir etmir, onu yaşayır, erməni vandallarının bütün vəhşiliklərini ürək ağrısı ilə qələmə alaraq onu oxucularına olduğu kimi, çatdırmaq üçün hadisələri olduğu kimi bütün detalları ilə verir. Hətta bu mənfurlar sülh elan edilən günün səhəri də öz murdar niyyətlərindən əl çəkməyərək pusqular təşkil edib sülhsevər günahsız insanları qətlə yetirirlər: "Ertəsi gün (sülh elan olunan gün) şəhər əhlindən olan Məhəmməd bəy Səfər bəy oğlu sülhü

qənimət bilib çöl işlərinə baş çəkmək məqsədilə Qaladan hərəkət edib Əsgəran qarşısındakı Qarqar çayından keçən zaman kəmfürsət düşmən pusqu yerlərindən atəş açıb o biçarəni qətlə yetirir, cəsədini parça-parça edərək üzünü və digər bədən üzvünü kəsib ciyərini çıxarıb aparırlar” [3, s.76].

Ermənilərin azərbaycanlılardan kimisə öldürdükdən sonra ciyərini çıxarma faktı əsərdə bir neçə yerdə qeydə alınıb. Düşmənin vəhşiliyinə aid daha bir fakt: “Bir gün sonra Qaladan qayıdan süvarilər Əsgərandan keçərkən Kəngərli atlılarından olan Mehdi Heydəroğlu ermənilər tərəfindən qətlə yetirilir. ... Mərhumun cəsədi yerdə qalır. Zalım və axmaq ermənilər ruhsuz cismin üstünə tökülüşüb insanlığa zidd hər nə əməllər mümkünsə, o cəsəd üzərində həyata keçirir, qarnını yarıb ciyərini çıxarıb aparırlar” [3, s.76-77].

Ən ağrılı məsələlərdən biri də bu idi ki, məğlub olduqları zaman yalvarıb-yaxarıb sülh sazişi bağlayan ermənilər vəziyyətdən sui-istifadə edərək hər vəchlə dövlətə və onun qanunlarına sədaqət göstərən, son nəticədə isə qanunun aliliyinə inanaraq silahı yerə qoyan və barışığa inanan sadəlövh günahsız müsəlmanları qətlə yetirirdilər. Acınacaqlı burası idi ki, bu faciələri, ədalətsiz qətlləri öz gözləri ilə görüb şahidi olan dövlət adamları ermənilərə qarşı heç bir cəza tədbiri görmür, onlara xəbərdarlıq etməklə kifayətlənirdilər. Lakin bunun əksinə olaraq kiçik bir qanun pozuntusuna yol vermiş müsəlman döyüşçüləri ən ağır cəzaya layiq görülürdülər. Müəllifin şahidi olduğu bir hadisəni təsvir etməsi deyilənlərin fakt olduğunu sübut edir: “Saziş imzalanan günün ertəsi Mehdiqulu xana məxsus at ilxısı Xan bağında olarkən miraxur sülh bağlandığına əmin olub ilxını aşağı Sultanbud tərəfə aparmaq istərkən, Əsgəranda pusquda duran ermənilər ilxını miraxur və mehtər qabağından qovub Xanabad dağlarına tərəf.... aparıb ermənilər arasında bölüşürlər. ... Bu hadisə zamanı, habelə Qalaya yardım aparan atlıların üzərinə Əsgəran və digər tərəflərdən tökülən erməni dəstələrinin başçısı Ağdamda pristavlıq edən kazak erməni Vano Yaralov olmuşdur. ...İlxı sahibinin vəkaləti əsasında bu sətirlərin müəllifi Qalada cənab hakimin hüzurunda həmin pristav haqqında tədbir görülməsini tələb etsə də, nə böyük, nə də kiçik hakimlər tərəfindən heç bir ölçü götürülmədi. O biri hakimə söylənilsə də, laqeydlik göstərərək ilxını gizlətmək üçün düşmənə fürsət verdi. ... Belə görünür ki, sülh islam əhlinə yeni düşmənçilik gətirmiş, hər yerdə ermənilərə yaxın müsəlmanın mülkü və malı olduğu təqdirdə ya qarət edilmiş, ya da yandırılmışdır” [3, s.89].

Risalənin “Zəngəzur mahalında baş verən hadisələr” bölməsində müəllif oradakı hadisələri ürək ağrısı ilə qələmə alır və erməni vəhşiliyini nifrətlə lənətləyir: “... minlərlə ermənilər hərəkətə gəlib dağlar döşündə, dərələr küncündə məskunlaşan yerli ac-susuz və silahsız kürdlərin üzərinə tökülüşüb qarışqa kimi onları dağıdıb, birinə də aman vermədən uşaqlı-böyüklü hamısını vəhşicəsinə qətlə yetirib sonra da yandırmışlar. ... Atmağa bir silahı belə olmayan əliyalın camaatın üzərinə düşmən ... dəniz kimi tökülüşür. Bu günahsız insanlara göstərilən zülm və vəhşət ancaq mənfur ermənilərə xas xüsusiyyətdir ki, onun şərhini qələmə almaq üçün daşürəkli və polad təbiətli olmaq gərəkdir” [3, s.91].

Mirzə Rəhim mənfur ermənilərin zalım, qaniçən, məkrli və qisasçı olduqlarını təsvir etməklə yanaşı, onlara müqabil dayanan müsəlmanların saf ürəkli, rəhimli, qəlbigeniş olduğunu qeyd etsə də, onları bu mənfur zümrənin ən zəif və mənfi cəhəti kimi səciyyələndirir: “... savaşdan sonra Allah-taalanın yardımı ilə sülh müqaviləsi imzalanmış və tərəflər arasında barışıq hökm sürməkdədir. Amma azğınlaşmış düşmənin Qala savaşının qisasını almaq məramında olduğunu bilməyən bu sadəlövh, savaşa hazırlıqsız, düşməndən qafil tayfa duz-çörəklərini yemiş bu bədxah qonşuların hücum fikirlərindən xəbərsiz olaraq sakitcə başlarını atıb yatırlar. ... Həyasız düşmənin isə içindəki ədavət alovları sönməmiş, ... səhər açılmamış yuxuda olan günahsız insanların üzərinə hücuma keçirlər” [7, s.98]. Nəticə isə məlumdur. Gecə yarısı şirin yuxudan hövlnak oyanan qocalar, əlsiz-ayaqsızlar, övrət-uşaqlar “ayaqyalın, yarıçılpaq halda ölümün caynağından xilas olmaq üçün vəhşilər kimi səhralara, dağ-daşlara ... üz tuturlar” [3, s.99].

Müəllif müəyyən məqamlarda müsəlmanların uğursuzluğa düçar olsalar da, ən kritik anda birləşərək mütəşəkkil halda düşmən üzərinə getmələrini xüsusi bir şövq ilə təsvir edir: “Ümmət

Şurası" təqdir olunduqdan sonra vaxt itirmədən düşmən üzərinə hücum etməyi qərara alır, ... yarım saat ərzində şəhər əhli – böyükdən kiçiyədək hamı birlikdə cəm olur və avaz ilə "Ya Əli!" – deyərək düşmən tərəfə hərəkət edir. Bütün ağsaqqallar, başbilənlər, xüsusən bacarıqlı həzrəti-şeyx irəlidə, böyük bir cəmiyyət isə onun ardınca şən və xürrəm, deyib gülərək ziyarətə gedən kimi düşmən üzərinə hücum edirlər" [3, s.46].

Erməni vandallarının törətdikləri vəhşiliklərin əzabını çəkən müsəlmanlar düşmənin məğlub olaraq acizanə şəkildə yalvarmalarına əvvəlcə məhəl qoymasalar da, döyüşlərin iyirminci günü düşmənin tam məğlub olduğunu hiss edirlər: "Hamı üçün yəqin olur ki, əgər elə bu gün islam mücahidləri öz işində möhkəm dayanarsa, şəhər bütünlüklə ermənilərdən təmizlənər" [3, s.60]. Erməniləri son nəfərə kimi qırıb tamamilə məhv etmək iqtidarında olan müsəlmanların "...qanında olan qeyrət və rəhm özünü göstərir, müsəlman zatında olan insaf və mürüvvət üzə çıxır. Bəziləri sırf rəhm göstərmək niyyəti ilə, bir çoxu nadancasına təsirləndikləri səbəbindən, bəzi cahillər ermənilərlə olan münasibət və ticarət xatirinə, bir qismi isə alınan qisası yetərli bildikləri üçün düşünürlər ki, "sülh" kəlməsi dilə gəldikdə qəbul edilsin" [3, s.61].

Ermənilərin müsəlmanları düçar etdikləri müharibə fəlakəti, verdikləri əzab-əziyyət və işgəncələrin şahidi olan müəllif sülh müqaviləsi ilə razılaşmır və müharibəni axıra qədər davam etdirməyi vacib bilir. Çünki bu mənfur millətin nə qədər rəzil, amansız və qaniçən olduğunu o yaxşı bilir.

Bununla yanaşı, ədib onu da qeyd edir ki, bəziləri ümumi vəziyyəti belə qarışıq gördükdə öz şəxsi mənafeləri naminə sülh sözünə dəstək verirdilər. Lakin ümumilikdə əhalinin əksər hissəsi qəzəbli olduğu üçün sülh müqaviləsi ilə razılaşmırdı. "Sülhməramlı" riyakarlar xalqın ixtilafından sevinir, sülh niyyətində olmayanlar isə bu durumdan qəzəblənirdilər" [3, s.62].

Başda din xadimləri olmaqla sülh bağlamaq üçün müsəlmanlara yalvarıb onların ayağına düşməyə hazır olan ermənilər içərisində olan bir qrup qaniçən "dığalar" münasibəti yenidən gərginləşdirməyə çalışaraq, küncdə-bucaqda gizlənərək mücahidlərə atəş açırdılar. Belə çaxnaşmaların birində ali rütbəli Şahmar bəy şəhid olsa da, onun qanı yerdə qalır, qisas üçün ayağa qalxan müsəlmanlar erməniləri məhv etmək istəyirlərsə də, "sülhə razılıq verdiklərinə görə, buna qarşı çıxmağı islam heysiyyatına xilaf bilib baş verən hadisəyə dözürlər" [3, s.63].

Bu kimi ədalətsizliyi görən ədib ermənilərin sülh müqaviləsinə görə müsəlmanlara minnətdarlıq əvəzinə, yeni təxribat törətmələrini "zatlarındakı murdarlıq və cılızlıq" kimi qiymətləndirir, onların nə qədər nankor, yaxşılıq bilməyən, insanlıqda haqqı olmayan bir tayfa olduğunu söyləyərək sülh razılaşmasından sonra törətdikləri cinayətləri bir-bir sadalayır [3, s.65]. Ədib sülh müqaviləsinin əsas qayəsini çox gözəl açıqlayır: "Düşmənin sülhdən əsas niyyəti güclü bəla təhlükəsindən canını qurtarıb qisas üçün əlverişli zaman gözləməkdir" [3, s.69]. Bu həqiqəti sadə insanlar "həm şəhərlilərdən, həm də kəndlilərdən ibarət islam mücahidlərindən çoxu, ağıllı və uzaqgörən tayfa başçıları" başa düşsələr də, ona etiraz etmək iqtidarında deyildirlər. Çünki "ümmət öncülləri və vəzifə axtaranlar, xarici və ticari mənafeyi mülahizə edənlər, .... hökumətpərəst rəislər" və digər vəzifə başında olan məsləksiz zümrələr onların qarşısını kəsən real qüvvə idi.

Nəhayət, müəyyən təsirlərlə sülh müqaviləsi bağlanır və müsəlmanlar müqavilə ilə bağlı on bənddən ibarət təklif irəli sürürlər. Bu təkliflərin hər biri hər iki millətin dinc-yanaşı yaşaması, münaqişəyə səbəb olan halların aradan qaldırılması üçün olduqca vacib idi. Bunlar şəhər məktəbini və realni məktəbin iki şöbəsini erməni məhəllələrindən müsəlman ərazisinə köçürmək; poçt, teleqrafxana, xəzinə, natarius və s. kimi bəzi mühüm dövlət idarələrinin erməni məhəllələrindən orta bir xətdə yerləşdirilməsi; müsəlman məhəlləsində divanxananın bir şöbəsinin açılması; erməni-müsəlman münaqişəsinə səbəb olan hər yerdə qətl və qarətlər törədən erməni firqəsinin şəhərdən və ermənilər yaşayan kəndlərdən uzaqlaşdırması; fəsadı aradan qaldırıb nizam-intizamı qorumaq üçün göndərilən piyada və süvari qoşun dəstəsində olan erməni əsgərləri və vəzifə sahiblərinin bu dəstələrdən kənarlaşdırılması və sairdən ibarət idi. Bu maddələrin hər biri möhkəm sülh yaratmaq

üçün vacib şərt olsa da, onların heç birinə əməl olunmadı və nəticədə ermənilərin qisas almaq üçün tədbir görmələrinə əlverişli şərait yaratdı: "Zəlil və sonsuz fəlakətə düçar olan erməni bu xoşniyyətli əməlin nəticəsində təhlükəsizlik və arxayınçılıq hiss etdikcə kin və ədavət odu anbaan rəhmsiz ürəklərində tüğyan edir. Üzdə sülh və barışıq adı ilə qəbul etdikləri tədbirlərdən arxada ədavət və fəsad üçün yeni hazırlıqlar görürlər" [3, s.119].

Ruslara arxalanaraq, tamamilə azğınlaşan ermənilər yeni-yeni cinayətlər törətsələr də, heç kəs onları sorğu-sual etmir, əksinə onların daha dəhşətli fəsadlar törətmələri üçün şərait yaradırdılar.

Risalənin sonunda müəllif Gəncə, Bakı, Tiflis, Qazax və Ağdaşda baş verən münaqişələr haqqında qısa məlumat verməklə kifayətlənir.

M.M.Nəvvabın ermənilər haqqında yazdığı "onlar (ermənilər – S.M.) kinli, ədavətli, təkəbbürlü, xudpəsənd və xəmirləri fitnə-fəsad ilə yoğrulmuş adamlardır" [5, s.15] fikrinə M.F.Rəhimin əsərində də rast gəlirik: "Ermənilərə xas olan rəzillik, paxıllıq və kin-küdurət əsl nadanlıq nümunəsidir" [3, s.49]. Hər iki müəllif öz əsərində ermənilərin müsəlmanları rusların gözündən salmaq üçün imkanları çatdığı qədər fitnə-fəsad dolu yalanlar uydurduqlarını, tədbirlər gördüklərini, şər, böhtan söyləyərək məqsədlərinə çatmaq üçün hər cürə alçaqlığı özlərinə rəva gördüklərini hərəsi özünəməxsus üslub və yazı manerası ilə qələmə almışdır.

## Nəticə / *Conclusion*

Əfsuslar olsun ki, faşist xislətli erməni vandallarının törətdikləri faciələr, sülhsevər azərbaycanlıların başına gətirdikləri müsibətləri ortaya qoyan belə bir əsər günümüzə qədər arxivlərdə yataraq, işıq üzü görməmişdir. Halbuki M.R.Fənanın "1905-ci il hadisəsi" əsəri öz dövründə olduğu kimi, bu gün də aktualdır. Adətən, əsərlərinin əksəriyyətini farsca yazan Mirzə Rəhimin bu əsəri Azərbaycan türkcəsində yazması da, səbəbsiz deyil. Ədib hər bir azərbaycanlının oxuyub başa düşməsi, yazılardan ibrət götürərək mənfur düşmənə qarşı amansız olması, vətənini sevərək onun yolunda canını belə verməyə hazır olması məqsədilə bu əsərini ana dilində yazmışdır. Əsərin ümumi məzmunundan göründüyü kimi, o, tarixi faktlar əsasında yazılmışdır. Lakin M.R.Fəna əsərini bir tarixçi kimi deyil, bir yazıçı kimi qələmə almış, memuar üslubunda tamamlamışdır.

## Ədəbiyyat / *References*


1. Baykara H. Azərbaycanın istiqlal mübarizəsi tarixi. – Bakı: Azərnəşr, 1922, 226 s.
2. Mirzə Rəhim Fəna. 1905-ci il hadisəsi / AMEA ƏYİ, F-13, s.v. 48, 54 v. (164 s.)
3. Mirzə Rəhim Fəna. 1905-ci il hadisəsi, tərtib edəni, mətni sadələşdirən və qeydlərin müəllifi A.Hacıyeva. – Bakı: Nurlan, 2009, 252 s.
4. Mustafa N. Mənbələr azərbaycanlıların 1905-1906-cı illər soyqırımı haqqında // "Xalq" qəzeti, 2009, 31 mart.
5. Nəvvab M.M. 1905-1906-cı illərdə erməni-müsəlman davası. – Bakı: "Azərbaycan", 1993.
6. Nuriyeva İradə. Azərbaycan tarixi. Ən qədim zamanlardan XX əsrin əvvəllərinədək. – Bakı: Mütərcim, 2025, s.336.
7. Rəsulzadə M.Ə. Əsərləri (1903-1909), araşdırıb toplayan, transliterasiya, ön söz və qeydlərin müəllifi, lüğətin tərtibatçısı: Ş.Hüseynov. – Bakı: Təhsil, 2014, 480 s.

# Трагедии учиненные армянами в произведении Мирзы Рагима Фана «Событие 1905-го года»

**Севиндж Аскерова**
Институт литературы имени Низами Гянджеви НАНА, диссертант
E-mail: sevincesgerova660@gmail.com

**Резюме.** В статье представлена подробная информация о произведении «Событие 1905 года» выдающегося представителя Карабахской литературной среды Мирзы Рахима Фаны. Рассказывается о рукописной версии произведения, его содержании и дошедших до нашего времени частях. Отмечается, что М.Р.Фана описывает в этом произведении события, свидетелем которых он был сам, и с болью в сердце передаёт произошедшие трагедии. Указывается, что на фоне армяно-азербайджанского межнационального конфликта, разожжённого Российской империей с целью подавления восстаний и протестных настроений против власти в регионах, как и в других частях Азербайджана, в Карабахе – в основном в городе Шуша и вокруг крепости Аскеран – были совершены страшные резни против мусульманского населения, нанесён огромный материальный ущерб, десятки азербайджанских сёл были разрушены. Также на основе фактов подчеркивается, что из-за поддержки армян со стороны местных чиновников царской России потери среди мусульманского населения были значительно больше.
**Ключевые слова:** Мирза Рахим Фана, события 1905 года, рукопись, геноцид